# Heyrətlənən və heyrətləndirən şair

***(Əvvəli ötən sayımızda)***

Qoy qərib məzarına baş əysin bu gün cahan,
O didərgin ruhuna Vətəndə min can qurban.
O nisgilli səsinə təşnədir Azərbaycan,
Çıxmadı, çıxmayacaq ürəklərdən bir ideal:
"İnsanlara hürriyyət, millətlərə istiqlal!"

Yoxluğuyla Vətəndə vəlvələ salan adam,
Kitablardan silinib qəlblərə dolan adam,
Ey təpədən dırnağa əqidə olan adam,
Bax, yenə də səngimir o çaxnaşma, qalmaqal;
"İnsanlara hürriyyət, millətlərə istiqlal!"

Nə qəribə adamsan?.. Öz kəndin, şəhərin yox,
Vətənindən, xalqından özgə dərdi-sərin yox.
Qurduğun məmləkətdə bir heykəllik yerin yox,
Sənin yerin ürəkdir, yenə ürəklərdə qal;
"İnsanlara hürriyyət, millətlərə istiqlal!"

Ey Türk dünyasında ilk bayraq qaldıran kişi,
Özgürlük beşiyinin başında duran kişi,
Otuz beş yaşda yoxdan bir dövlət quran kişi,
Sənindir bu məmləkət, sənindir o istiqbal,
"İnsanlara hürriyyət, millətlərə istiqlal!"

Bəli, budur Məhəmməd Əmin amalına sədaqət, Məhəmməd Əmin ruhuna ehtiram, budur ülvi seiriyyət!

Zəki Bayram Yurdçunun "Səndən nə gizlədim..." seirlər kitabında bir-birindən gözəl yüzlərlə ictimai-siyasi məzmunda seirlər cəmlənib. Bu şeirlərin hamısında Bütöv Azərbaycan amallı Vətən övladlarına dərin məhəbbət, talançılara və yalançılara isə sonsuz nifrət öz əksini tapıb. Əlbəttə, bu şeirlərin hamısı haqqında söhbət açmaq həm imkan xarıcındədir, həm də çox vaxt aparar. Amma buna baxmayaraq, özümdə güc tapıb əlimə qələm aldığıma görə Zəki bəyin şeirlərindən bir qədər də nümunələr gətirmək istəyirəm. Belə şeirlərdən biri də "Yaşamaq olmur" şeiridir. Həmin şeirdə şair mövcud acı gerçəklikləri yanıqlı dillə qələmə alır:

...Qarışır gözümdə ağlar, qaralar,
Yarımçıq bütövlər, bütöv paralar.
Hər gün açıldıqca köhnə yaralar,
İçim qana batır, yaşamaq olmur.

Bu kimdir seçilmir başdan ayağı?
Yağıya şam olur gözünün yağı.
Adını şir qoyub... pişik sayağı,
Hər tumara yatır, yaşamaq olmur.

Şair "Oldu" şeirində də həmin problemləri, başımızdan aşan ictimai dərdlərimizi şeirə gətirir, gözlərimiz qarşısında sərgiləyir:

...Təbillər vuruldu, çalındı cəngi,
Pozuldu hər yerdə həyat ahəngi.
Qarışdı dünyanın surəti, rəngi,
Ağ qara geyindi, qara ağ oldu.

Tanrımı bizlərə gözücü baxdı?
Bəy-xan babaların çevrildi taxtı.
Kimi qurdaladıq, - erməni çıxdı,
Kimə arxalandıq, - balqabaq oldu.

Zəki Bayram Yurdçu "Çatmır" qoşmasında millətə qan ağladan Vətən dəllalları, dil pəhləvanları haqqında qılıncdan da kəskin fikirlər söyləyir:

...Hər gün köhnə-təzə dərdlər oyanır,
Baxırsan, - ürəyin qana boyanır.
Zalımın zülümü ərşə dayanır,
Allaha məzlumun duası çatmır.

Yalançı imandan, dindən don geyir,
Yüz əyri birləşib bir düzu əyir.
Daş atsan alimə, şairə dəyir,
Yenə məmləkətin ziyası çatmır.

Sinəmdə qovrulub ürək dağ olur,
Hər gün nökər ölür, nökər doğulur.
Hamı öz qınında qalıb boğulur,
Bir udum azadlıq havası çatmır.

Bu yerdə Zəki Bayramın bu şeirlə müəyyən mənada həmahəng olan başqa bir şeirindən də söz açmaq yerinə düşərdi:

...Ha yüyür, ha qovla, hə qaç, ha şığı;
Bu evin, o evə düşməz işığı.
Ürəklər nisgilli, başlar aşağı;
Kimi siqar çəkir, kimi dərd çəkir.

Biz ki öyrənmişik yoxun varına,
Yaşaya bilərik lap acqarına.
Söykəyib ağzını şah damarına,
Vətənin qanını neçə qurd çəkir.

Mənim aləmimdə şairin bilikli, cəfakeş, dözümlü olması ilə bahəm onun Tanrı vergili olması və anadan şair doğulması ən vacib şərtlərdəndir. Zəki Bayram Yurdçunun şeirlərində haqqın-ədalətin dilə gətirilməsi onun Tanrı vergili şair olmasının sübutudur. Onun anadan şair doğulduğunun başqa bir sübutunu anasına sağlığında və haqqın dərgahına qovuşandan sonra həsr etdiyi şeirlərində də görmək olar. Şair "Bir gecə anamın qonağı oldum" şeirindəyetkin çağlarında Bakıdan kəndə getməsini və anasının yenə də onun,körpəlikdə olduğu kimi, hər qayğısına qalmasının, əzizləməsinin şahidi olur. Və şair bunu həmin şeirində belə qələmə alır:




Bir gecə anamın qonağı oldum,
Çoxdan belə şirin yatmamışdım mən.
Atamın ruhuyla baş-başa qaldım,
Çarpaşıq duyğular keçdi ürəkdən.

Sonraki bənddə şair ata ocağının tüstüsünün də ona doğma gəlməsindən, ana çörəyinin daha dadlı olmasından, canına dözüm, təpər verməsindən söhbət açır.

Hamıdan tez durar hər səhər ertə,
Baş çəkər həyətə, tövləyə, hinə.
Titrək əlləriylə üstümü örtər, -
Sabahın soyuğu dəyməsin mənə.

...Hərdən artırmadan baxar aşağı,
Pillələr gözündə dağ-dərə kimi.
Yerbəyer etməsə oğul-uşağı,
Yenə çimir vurmaz səhərə kimi.

Bəyaz saçlarında ömrün qırovu,
Hər ağrı-acımız canından keçir.
Bir vaxt əlindəydi vaxtın cilovu, -
İndisə vaxt-zaman yanından keçir.

Z.Bayram anasının nə qədər qocaldığını şairanə bir kövrəkliklə təsvir edir:

Hərdənbir söykənib əyri əsaya,
Ətrafa boylanar, - sözü var kimi.
Yorğun gözləriylə baxar dünyaya,
Uzaq yoldan gəlmiş yolçular kimi.

Şairin ana ülviliyinə və doğmalığına həsr etdiyi "Bir gecə anamın qonağı oldum" şeirinin ən gözəl bəndi, fikrimcə, sonda gəlir. Sanki şair bumisralarla oxucularını analarının qədrini bilməyə, onları sonsuz bir məhəbbətlə sevməyə çağırır:

Həmişə ehtiyat çay-çörəyi var,
Kiməsə əziyyət verməsin deyə.
Hər gün öz-özünə ölüm arzular,
Bircə övlad dağı görməsin deyə.

Anası haqqın dərgahına qovuşduqdan sonra şair başqa bir şeirində ana itkisinin nə qədər ağır olduğunu belə mənalandırır:

Daha diləklərim Tanrıya yetməz,
Daha yuxularım çin çıxmaz, anam.
Gözümdə bir yolluq qaraldı dünya,
Bəlkə dan sökülməz, gün çıxmaz, anam.

Hər gün ömrümüzə boran-qar gələr,
İntizar üstündən intizar gələr.
İndi yüz qış gedər, yüz bahar gələr,
Bir də ot göyərməz, su axmaz, anam.

Sənsiz "oğlum", "balam" deyən çox olar,
Ruhum sızıldayar, qəlbim yuxalar.
Öz oğlum böyüyər, nəvəm doğular,
Yetimlik yaxamı buraxmaz, anam...

Bu kövrək misraları oxuyanda istər-istəməz anasını itirən ustad Şəhriyarın "Ey-vay, anam" şeirindən bu beytləri xatırladım:

...Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaratmış, mən aləm yaratmışam.
Qarşıdadır hələ mənim qəmim, kədərim,
Mənim anasız günlərim, mənim yetim günlərim.

Zəki Bayram Yurdçunun ən gözəl şeirlərindən biri də bütün mütərəqqi bəşəriyyətin böyük ehtiram və məhəbbət bəslədiyi Demokratik Ukrayna Respublikasının Prezidenti, Ali Baş Komandanı, Ukrayna xalqının uğrunda canından keçməyə hazır olduğu sevimli oğlu Vladimir Zelenskiyə həsr etdiyi "İşıq - Adam" şeiridir. Bu şeirdə həm Zəki Bayram Yurdçunun demokratik ruhlu bir şair olduğu, həm də insanlığın müdafiəsinə qalxdığı açıq-aydın görünür. Şair şeirinin ilk bəndində üzünü köləlik aşıqlərinə, qorxaq-yaltaq adamlara tutaraq belə deyir:

Bir vaxt mövzu oldun hər cür soruna,
Qorxaq sürüsünə, yaltaq xoruna;
Qosqoca Rusiya diktatoruna
Neyləyər bir artist, bir uşaq adam?

Doğrudan da şair, haqlı olaraq, şeirinin ilk bəndinin iki misrasında çox incə mətləblərə toxunur,dördüncü misranı isə kütbaşların, manqurtların verdiyi sualla bitirir. Hamımıza bəllidir ki, zalım Putin Rusiyası Demokratik Ukrayna Respublikasıyla işğalçılıq müharibəsinə başlayanda çoxları Zelenskini Ukrayna xalqını Vətənin müdafiəsinə səslədiyi üçün qınayırdı və şairin son misrada işlətdiyi "Neyləyər bir artist, bir uşaq-adam?" sözlərini hirsli-hikkəli şəkildə dilə gətirirdilər. Mən kölə psixologiyalı həmin binəvaların yadına dahi alman filosofu Hegelin "Köləlik elə şərəfsizlikdir ki, kölə qoluna vurulan qandalları öpüb oxşayır" və dahi fransız rəssamı Rodenin "İncəsənət dünyanın dərki yollarını axtaran, dünyanın işlərini anlaşıqlı edən ən yüksək fəaliyyət sahəsidir" fikirlərini xatırladıram. Hegelin fikrini izah etməyə heç bir ehtiyac yoxdur. Rodenin fikrinisə açıqlamağa bir qədər ehtiyas var. Bəllidir ki, SSRİ dağılanda demokratiyanın beşiyi sayılan ABŞ-da Prezident D.Reyqan idi. O, Reyqan ki, onun da əsas sənəti Zelenski kimi aktyorluq sənəti olub. Mən belə düşünürəm ki, aktyorluq ta qədimdən bu günə qədər və gələcəkdə də ən incə sənət və elm sahəsi olub-olacaqdır. Bunu lap dərindən başa düşmək üçün qədim yunan dramaturgiyasını, xüsusilə də, eramızdan 500 il əvvəl yaşamış dahi yunan dramaturqu Aristofanın "Atlılar" komediyasını oxumaq, yaxud da onun tamaşasına baxmaq, qorxunc, qorxaq, maymaq, hiyləgər Kleonun və Kolpasanın hökmranlığına gözləri yaşarınca gülmək lazımdır.

***(Davamı 16-cı səhifədə)***

*(Əvvəli 14-cü səhifədə)*

Onda dramaturqları, aktyorları qınayanlar, diktatorları tərifləyənlər müasir zamanda nə qədər kütbaş olduqlarını anlayarlar və başa düşərlər ki, yalnız aktyor Reyqanın başladığı işi elə aktyor Zelenski də başa çatdıra bilər!!! Şeirin sonrakı bəndlərində şair üzünü Vladimir Zelenskiyə tutaraq deyir:

*...Bax, tarix yazırsan hər bir işinlə,*
*İndidən qalibsən haqq vuruşunla.*
*Zalımın önündə dik duruşunla,*
*Sən işıq saçırsan, sən - işıq-adam.*

*Bu gün könlümüzün tək sevgisisən,*
*Haqqın dayağı sən, haqqın səsi - sən.*
*Tanrı Ordusunun sərkərdəsisən,*
*Adam kişi olar, ey Kişi-adam.*

Şair bu bənddə də, haqlı olaraq, Zelenskiyə "Ey kişi-adam" deyərək müraciət edir və demokratik dövlətlərin başçılarını da İngiltərənin cəsur Baş naziri Boris Conson kimi kişi-adam olmağa çağırır. Əslində yeni dünya nizamında cümlə bəşər övladları getdikcə daha aydın başa düşürlər ki, Ukrayna torpağı yer üzünün ən müqəddəs torpaqlarından birinə, yəni demokratiyanın beşiyinə çevrilməkdədir. Bunun da əsas səbəbi azadlıq aşiqi Ukrayna xalqının öz Prezidenti ilə birlikdə Vətəninin müdafiəsinə qalxması və dahi şairləri Taras Şevçenkonun ruhunu əbədi olaraq şad etmələridir. Zəki Bayram Yurdçu bu fikirləri "İşıq-Adam" şeirinin son bəndlərində belə ifadə edir:

*Fəxr edir Ukrayna adın-sanınla,*
*Xəyalın, qürurun, həyacanınla.*
*Əyilməz iradən, saf vicdanınla,*
*Xalqına, yurduna yaraşıq adam.*

*Bütün azad dünya, doğma Vətənin,*
*Uğrunda ölməyə nə var ki sənin.*
*Ruhu kömək olsun Taras dədənin,*
*Sən Kobzar oğlusan, sən aşıq-adam!*
*Sən işıq saçırsan, sən-işıq-adam!*
*Xalqına, yurduna yaraşıq adam!*

Şair bununla da bütün bəşər övladlarını, o cümlədən də, o taylı-bu taylı Azərbaycanın Oğuz Türklərini aşıq-adam, işıq-adam olan Vladimir Zelenskiylə, Ukrayna xalqı ilə birlikdəişğalçılara qarşı mübarizəyə səsləyir. Ona görə ki, bu işğalçılar bir daha dünya ağası olmaq iddiasına düşməsinlər, bir daha Azərbaycanı iki yerə parçalamasınlar, bir daha Oğuz Türklərini 1830-1850-ci illərdə və 1930-1950-ci illərdə olduğu kimi ağır repressiyalara məruz qoymasınlar. Bir sözlə "İsgəndərnamə" əsərində dahi Nizami demişkən: "Ruslar nə özləri yaşaya bilir, nə də digər xalqları yaşamağa qoyur". Hərgah indi də bəşəriyyət qəflətdən ayılıb rus işğalçılığına, aqressiyasına qarşı durmasa, bu qiyamətin yetişməsi və bütün bəşəriyyətin fəlakət girdabına yuvarlanması deməkdir. Əslində, III Dünya müharibəsi 24 fevral 2022-ci il tarixindən başlayıb. Bunu açıq-aydın etiraf etmək lazımdır. Ona görə də dünya gücləri birləşərək rusun nazıyla oynamamalıdır, müharibənin Ukraynanın qələbəsiylə tezliklə (daha qorxunc silahlar kəşf olunmasın deyə) başa çatması üçün var qüvvələrini və bacarıqlarını əsirgəməməlidirlər. Zəki Bayramın "İşıq-adam" şeirində də, fikrimcə, elə bu ali istək öz əksini tapmışdır.

Z.Bayramın "Səndən nə gizlədim..." kitabında haqqında geniş söhbət açmaq istədiyimiz bu kimi şeirlər çox-çoxdur.Ancaq dəryadan götürülmüş bir neçə damla da onun dadını-duzunu çatdıra bilir. Biz isə istedadlı şairə can sağlığı və yeni yaradıcılıq uğurları diləməklə burada sözümüzü bitiririk.

***Fəzail İSMAYIL BÖYÜKKİŞİ***